# Ümummilli Lider Azərbaycanın çoxəsrlik salnaməsinin tarixi qəhrəmanıdır

**Azərbaycan İlahiyyat İnstitutu (AİI) ulu öndər Heydər Əliyevin vəfatının ildönümü ilə bağlı anım tədbiri keçirdi.**

Tədbirdə institutun müəllim-tələbə heyəti, millət vəkili, siyasi elmlər doktoru Elman Nəsirov və digər qonaqlar iştirak edirdilər.

AİI rektoru Ceyhun Məmmədov ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant mühit, o cümlədən əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış etdi. O, Azərbaycanın çoxəsrlik salnaməsinin tarixi qəhrəmanına çevrilmiş ümummilli lider Heydər Əliyevin ölkəmizin inkişafında və xalqımızın mənəvi təkamülündə həyata keçirdiyi hər bir tədbirin böyük hadisə olduğunu qeyd edərək bildirdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti bu gün Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Belə ki, ölkəmizdə bir çox dini ibadət ocaqları təmir və ya bərpa olunur, yeni dini təhsil müəssisələri yaradılır, dövlət tərəfindən dini qurumlara mütəmadi maliyyə vəsaiti ayrılır, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri xanım Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət göstərir.





Milli Məclisin deputatı Elman Nəsirov ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub saxlanılmasında misilsiz xidmətlərindən bəhs edərək, Ümummilli Liderin xalqımızın rifahı naminə həyata keçirdiyi siyasi-iqtisadi islahatlardan söz açdı. O, Ulu Öndərin əsasını qoyduğu strateji inkişaf xəttinin Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini diqqətə çatdırdı.

Natiq ulu öndər Heydər Əliyevin formalaşdırdığı və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi, ölkəmizin milli maraqları və beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmaqla, qonşu dövlətlər və dünya birliyi ilə əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi, respublikamızın enerji resurslarının dünya bazarlarına çıxarılması, nəqliyyat infrastrukturunun inkişafı, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı informasiya blokadasının aradan götürülməsi və işğalçıya qarşı beynəlxalq təzyiqin güclənməsi kimi məsələləri özündə ehtiva edən xarici siyasət strategiyası haqqında da məlumat verdi.

Tədbirin sonunda tələbələr ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndirdilər.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

2018.- 12 dekabr.- S.3.